**UOT 338.43**

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ BİZNES MÜHİTİNİN FORMALAŞDIRILMASI: KİÇİK VƏ ORTA BİZNES SAHİBKARLIĞINA DƏSTƏK

**Əlövsət AĞAYEV** *

Məqalə redaksiyaya daxil olmuşdur: 12 may 2023; çapa qəbul edilmişdir: 15 iyun 2023; online-da çap edilmişdir: 30 iyun 2023.

Received: 12th of May, 2023; accepted: 15th of June, 2023; published online: 30th of June, 2023.

**Açar sözlər:** *işğaldan azad olunmuş ərazilər, biznes mühiti, kiçik və orta sahibkarlıq, investisiya, inkişaf, KOB*

## Giriş

44 günlük Vətən müharibəsində Azərbaycanın müzəffər ordusunun göstərdiyi şücaət nəticəsində 30 ilə yaxın müddətdə erməni tapdağı altında qalan, dağıdılan və sərvətləri talan edilən tarixi torpaqlarımız geri qaytarılmışdır. İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikasının qərarı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmış və bu ərazilərdə iqtisadi inkişafın təmin olunması əsas məqsəd hesab olunmuşdur. Tarixi torpaqlarımız qaytarıldığı gündən həmin ərazilərdə sürətli bərpa işləri və yenidənqurma işlərinə start verilmişdir. Yenidən qurma işlərinin başlanması bir istiqamətli yox, çox istiqamətli aparılmışdır ki, bu da öz növbəsində işğaldan azad olunmuş ərazilərin relyefinə, iqliminə və digər göstəricilərinə uyğun gələn hər bir sahənin formalaşmasına və inkişafına təkan verir. Yenidənqurma və bərpa işləri öz növbəsində işğaldan azad olunmuş ərazilərdə biznes mühitinin formalaşdırılmasından və kiçik və orta sahibkarlığın inkişafından yan keçməmişdir. Bu ərazilərə sahibkarların cəlb olunması üçün müxtəlif güzəşt və yardımlardan istifadə olunur. Bu da öz növbəsində sahibkarların bu ərazilərdə öz bizneslərini qurmağına və inkişafına təkan verir. Sahibkarlıq mühitinin formalaşdırılması və inkişafının təmin olunması üçün Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli fərmanı ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılmışdır. KOBİA, məlumat verən sahibkarlara bizneslə məşğul olmaq üçün ərazilərin iqtisadi investisiya potensialına dair informasiya, məsləhət, əlaqələndirmə və digər xidmətlər göstərilir. İşğaldan azad olunmuş ərazilərdə biznes mühitinin formalaşdırılması və ümumi sahibkarlığın inkişafı üçün investisiya qoyuluşunun təmin olunması ən vacib məsələlərdən biri hesab edilmişdir. İnvestisiya qoyuluşu həm daxili imkanlar hesabına, həm də, xarici cəlb etmələr hesabına həyata keçirilə bilər. Dünya üzərində mövcud olan inkişaf etmiş ölkələr kiçik və orta biznes sahibkarlığından geniş istifadə edir ki, bunun da ən başlıca səbəbi gətirdiyi gəlirin çox yüksək olmasıdır. Ölkəmizdə də iqtisadi inkişafın təmin olunmasında kiçik və orta biznes sahibkarlığından geniş istifadə olunur. Kiçik və orta sahibkarlıq fəaliyyətindən istifadə edərək müxtəlif sahələrin inkişafının təmin edilməsinin mümkün olduğu, bu məqalədə bizə aydın olmuşdur. Məqalədən məlum olduğu kimi işğaldan azad ərazilərdə yenidənqurma işləri

* *magistrant, Bakı Avrsiya Universiteti*
*e-mail:* elovsetagayev892@gmail.com

başladığı ilk dövrlərdən bu ərazilərdə sahibkarlıqla məşğul olmaq istəyənlər müraciət etməyə başlamışdır. Bu müraciətlərin əksər hissəsi ölkə daxilindən olsa da, xarici sahibkarların müraciəti də kifayət qədər olmuşdur. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə daxil olan məlumata görə 2022-ci ilin yanvar ayına kimi KOBİA-nə 945 müraciət daxil olmuşdur. Bunlardan 446 müraciət investisiya layihələri, 499 isə, digər iş və xidmətlərlə bağlı olmuşdur. Müraciətlərin 27%-i tikinti işlərini, 27%-i ticarət və xidmət sahəsini, 21%-i sənayeni, 18%-i kənd təsərrüfatını, digər 7%-ni isə təhsil, turizmi, mədəniyyət, səhiyyə və digər sahələri təşkil etmişdir. [4, s. 38]

Bu tədqiqat işinin aparılmasında əsas məqsəd Azərbaycanın işğaldan azad edilmiş iqtisadi rayonlarında KOB-ların inkişaf imkanlarını və ölkə üzrə ümumi sosial-iqtisadi inkişafının təmin olunmasında KOB-ların rolunu araşdırmaqdan ibarətdir. Qarşıya qoyulmuş bu məqsədə nail olmaq üçün aşağıda göstərilən vəzifələr həyata keçirilməlidir.

- Azərbaycanda sahibkarlığın inkişafına dair dövlət siyasətini və onların təsnifləşdirilməsini müəyyənləşdirmək;
- İşğaldan azad edilmiş ərazilərdə KOB-ların inkişaf imkanlarını araşdırmaq;
- KOB-ların əhəmiyyətini və sosial-iqtisadi inkişafa təsirlərini araşdırmaq;
- KOB-ların inkişafını şərtləndirən amilləri müəyyənləşdirmək.

**İşğaldan azad olunmuş ərazilərdə sahibkarlığın rolu**

Biz bilirik ki, sabibkarlıq yüksək gəlir qazanmaq məqsədi ilə aparılan fəaliyyətdir. Sahibkarlıq əlavə dəyər yaradaraq yeni iş yerlərinin açılmasına təkan verir. Daxili iqtisadiyyatın formalaşmasında, inkişafında və xarici iqtisadiyyata təsirində sahibkarlığın mühüm rolu vardır. İnkişaf etmiş ölkələrin hamısında sahibkarlıq mühüm yer tutur. Bu ölkələrdə sahibkarlığın inkişaf etməsi səbəbi ilə əlaqədar olaraq xidmət, istehsal sahələri və digər sahələr çox mükəmməl şəkildə inkişaf etmişdir. Sahibkarlığın inkişafı aşağıdakı müsbət halların baş verməsinə səbəb olur:

1. Dövlət büdcəsinin formalaşmasına təkan verir.
2. Daxili bazara keyfiyyətli məhsullar və xidmətlər təklif edir.
3. Ölkənin birbaşa ixracat potensialının artırılmasına təkan verir.
4. Sağlam rəqabət mühitinin yaranmasına imkan verir.

Regionda aparıcı güc kimi fəaliyyət göstərən ölkəmiz həm ölkənin ümumi sosial iqtisadi inkişafına, həm də işğaldan azad olunmuş ərazilərimizin xüsusi inkişafını nəzərə alaraq, 2030-cu ilədək, 5 milli prioritetin həyata keçirilməsini nəzərdə tutmuşdur. Bura daxildir: *"işğaldan azad olunmuş ərazilərə böyük qayıdış", "dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat", "rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı", "təmiz ətraf mühit və yaşıl artım ölkəsi", "dinamik inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət"*. [2, s. 8]

Yuxarıda göstərilən prioritetlər, işğaldan azad olunmuş ərazilərdə biznes mühitinin formalaşması və inkişafında önəmli rola malikdir. Biz bildiyimiz üzrə işğaldan azad olunmuş ərazilərdə sahibkarlığın və biznes mühitinin formalaşdırılması və ümumi iqtisadi inkişaf üçün investisiyaya ehtiyac vardır. Bu ərazilərə investisiya yatırmaları həm daxili güc hesabına, həm də xarici dövlətlər tərəfindən həyata keçirilir. Bu ərazilərə investisiya yatırmaq maraqları olan bir çox ölkənin adını çəkə bilərik. Bura: İsrail, Türkiyə, Böyük Britaniya, İtaliya, Pakistan, Macarıstan və sair. ölkələr daxildir. Bu investisiya yatırmaları həm yenidənqurma və bərpa işlərinin həyata keçirilməsinin, həm də müxtəlif sahələrin inkişafının əsasını qoyur. Bu da öz növbəsində sosial-iqtisadi inkişafa, məhsul istehsalının inkişafına, ölkənin beynəlxalq iqtisadi əlaqələrinin güclənməsinə təkan verir.

İşğaldan azad olunmuş ərazilərdə kiçik və orta biznes sahibkarlığına xüsusi diqqətin olduğunu ölkə başçısının sərəncamlarından da görə bilərik ki, bu sərəncamlardan biri

də, 2021-ci ilin 2 fevral tarixindən qüvvəyə minmişdir. Bu sərəncamda göstərildiyi kimi: "Özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımının və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün işgüzar mühit əhəmiyyətli dərəcədə yaxşılaşdırılmalı, məhkəmə-hüquq sistemində şəffaflıq artırılmalı, haqsız rəqabətin qarşısı alınmalıdır. Yeni və şəffaf özəlləşmə strategiyası həyata keçirilməlidir. Biznesin təşviqi mexanizmlərinin iqtisadi səmərəsi artırılmalıdır. Vergi və gömrük siyasəti dövlət büdcəsinin xərclərinin təmin edilməsi üçün adekvat imkanlar yaratmaqla yanaşı, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına xidmət edir. Qarabağ və Şərqi Zəngəzurda özəl sahibkarlar mühüm rola sahibdir ki, onlar bu ərazilərdə sosial-iqtisadi fəaliyyətin yenidən təmin olunmasında mühüm rola malikdir. Bu ərazilərdə prioritet istiqamətlərdən biri, daxili və xarici biznes nümayəndələrini Qarabağ və Şərqi Zəngəzura cəlb etməkdir. [3, s. 64]

Bildiyimiz kimi, işğaldan azad olunan ərazilərdə yenidən iqtisadi fəaliyyətin təmin olunması üçün investisiya yatırımı həyata keçirilir. Belə ki, 2021-ci ildə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa və quruculuq işlərinə 1,3 milyard dollar yəni 2,2 milyard manat həcmində vəsait ayrılmışdır. Bu göstərici 2022-ci ildə 2,7 milyard manat olmuşdur ki, 2023-cü ildə isə, ötən ildəkindən 13% daha artıq, yəni 3 milyard manat investisiya yatırımı gözlənilir.

Hökumət Qarabağ və Şərqi Zəngəzurda biznes fəaliyyətinin təmin olunması üçün bir çox gərəkli addımlar atmışdır. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəsmi məlumatına görə 2023-cü il yanvarın 1-dək Qarabağ və Şərqi Zəngəzurda biznes fəaliyyəti ilə məşğul olmaq üçün sahibkarlar tərəfindən agentliyə 1339 müraciət daxil olmuşdur. Müraciətlər ölkənin daxilindən və xarici ölkələrdən olmuşdur. Belə ki, müraciətlərin 873-ü ölkə daxilindən, qalan 466 müraciət isə 37 ölkədən olmuşdur. [3, s. 96]

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında KOB-ların inkişaf imkanları**

KOB-ların inkişaf etdirilməsi və onun daimi fəaliyyətinin tənzimlənməsi ilə bağlı olaraq Respublikamızda davamlı işlər görülmüşdür. Aparılan struktur islahatlarının və qəbul edilmiş normativ hüquqi aktların əsasında KOB-ların inkişafının təmin edilməsi üçün müxtəlif həcmli dəstək və təşviq proqramlarının həyata keçirilməsi durur. "Azəbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə kiçik və orta biznesin inkişafını təmin etmək üçün meyarlar müəyyən edilməsi və həmçinin sahibkarlar üçün "ömür boyu öyrənmək" imkanları Respublikamızda KOB-lara verilən dəyərin bariz nümunəsidir. (SMB, 2022)

Respublikamızda KOB sahəsinə dövlət münasibətinin və dövlət siyasətinin daha da yaxından təsiri baxımından önəmli addımlardan birini Nazirlər Kabineti (NK) tərəfindən 21.12.2018-ci il tarixli və 556 nömrəli qərarına uyğun olaraq KOB-ların yeni bölgü meyarlarının müəyyənləşdirilməsi təşkil edir (E-qanun, 2018). Hazırda Respublikamızda qəbul olunmuş bu sənəd vasitəsilə onların kateqoriyaları müəyyən edilir və sahibkarlıq təsisatlarının təsnifləşdirilməsi həyata keçirilir. Buna uyğun olaraq, qəbul olunmuş qərar əsasında Cədvəl 1-də göstərilən yeni meyarlar Respublikamızda sahibkarlıq fəaliyyətinə dair bir növ çərçivə sənədi kimi də qəbul edilə bilər. Ona görə də, Cədvəl 1-də verilmiş ölçü meyarlarının nəzərdən keçirilməsi və təsnifləşdirilməsi və onların təhlili tədqiq olunan istiqamət üzrə şəffaf göstərilməsi, formalaşdırılması baxımından olduqca mühüm önəm kəsb edir.

*Cədvəl 1*

**AR-da sahibkarlıq subyektlərinin yeni ölçü meyarları**

| Sahibkarlığın növü | İşçilərin say həddi | İllik gəlirin həddi (ig) (min manat) |
|---|---|---|
| Mikro səviyyəli | 1-10 intervalı | ig≤ 200 |
| Kiçik səviyyəli | 11-50 intervalı | 200< ig≤ 3000 |
| Orta səviyyəli | 51-250 intervalı | 3000 < ig≤ 30000 |
| Böyük səviyyəli | 251 və daha çox | 30000< ig |

***Mənbə:*** *[1, s. 185]*

Regionlarda, müasir dövrümüzdə, qarşıya qoyulan əsas məqsədlərdən biridə biznes mühitinin daha da yaxşılaşdırılmasıdır.

Azərbaycanın hazırda regional inkişaf kontekstinin milli prioritetlərindən birini də Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi, sosial-iqtisadi inkişafın təmin edilməsi və davamlı məskunlaşmanın həyata keçirilməsi təşkil edir. Bu istiqamətdə əsas vasitələrdən biri kimi işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında KOB-ların ən müasir standartlara uyğun şəkildə yaradılması və inkişaf etdirilməsi hesab olunur.

*Cədvəl 2*

***Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə bölgüsü***

| İqtisadi və inzibati rayonlar | 2019 | | | | 2020 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | | Cəmi | o cümlədən | | |
| | | Mikro | kiçik | orta | | mikro | kiçik | orta |
| **Ölkə üzrə cəmi** | **271304** | **262622** | **5956** | **2726** | **316370** | **307717** | **5943** | **2710** |
| **Qarabağ** | **10328** | **10139** | **133** | **56** | **12857** | **12692** | **114** | **51** |
| Xankəndi ş. | 1 | 1 | - | - | 838 | 838 | | |
| Ağcabədi r. | 2108 | 2070 | 27 | 11 | 2715 | 2689 | 15 | 11 |
| Ağdam r. | 1552 | 1524 | 22 | 6 | 1503 | 1478 | 17 | 8 |
| Bərdə r. | 4089 | 4037 | 40 | 12 | 5098 | 5053 | 35 | 10 |
| Füzuli r. | 1413 | 1380 | 22 | 11 | 1217 | 1187 | 21 | 9 |
| Xocalı r. | 11 | 9 | 1 | 1 | 29 | 27 | 1 | 1 |
| Xocavənd r. | 59 | 53 | 4 | 2 | 153 | 147 | 5 | 1 |
| Şuşa r. | 13 | 10 | 3 | - | 27 | 23 | 4 | - |
| Tərtər r. | 1082 | 1055 | 14 | 13 | 1277 | 1250 | 16 | 11 |
| **Şərqi Zəngəzur** | **537** | **496** | **31** | **10** | **1156** | **1113** | **28** | **15** |
| Cəbrayıl r. | 156 | 146 | 7 | 3 | 212 | 203 | 5 | 4 |
| Kəlbəcər r. | 95 | 90 | 3 | 2 | 216 | 208 | 5 | 3 |
| Laçın r. | 188 | 172 | 13 | 3 | 83 | 77 | 3 | 3 |
| Qubadlı r. | 47 | 41 | 4 | 2 | 571 | 555 | 11 | 5 |
| Zəngilan r. | 51 | 47 | 4 | - | 74 | 70 | 4 | - |

***Mənbə***: *[3]*

Dövlət Statistika Komitəsinin müvafiq iqtisadi rayonlar üzrə fəaliyyət göstərən mikro, kiçik və orta (MKO) səviyyəli sahibkarlıq subyektlərinin 2019-cu və 2020-ci ilə dair bölgü (Cədvəl 2) məlumatlarından istifadə etmək işğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafını qiymətləndirmək baxımından faydalıdır. [3, s. 74] Rəsmi sənədlərdə və statistik məlumatlarda qeyd edilmiş bəzi inzibati rayonlar 30 ilə yaxın bütünlüklə işğal altında olduğundan onların müvafiq göstəriciləri yox səviyyəsində hesab olunur və ya bu göstəricilərin əksəriyyəti rəsmi dövlət orqanlarında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan inzibati ərazi vahidləri üzrə qeydiyyata alınmış sahibkarlıq subyektlərini özündə cəmləyir. Ancaq təqdim olunan və qeydiyyatı aparılan məlumatlar sahibkarlıq təşəbbüsləri və aktivliyini müəyyənləşdirmək baxımından mühüm önəm daşıyır.

Cədvəl 2-də qeyd edilən statistik göstəricilər üzərində təhlil apardıqda aydın olur ki, 2019-cu ildə Qarabağ iqtisadi rayonu üzrə mövcud olan 10328 KOB subyektinin 1%-i isə tamamilə Ermənistan silahlı qüvvələrinin işğalı altında olmuş Xocalı, Xocavənd, Şuşa və Xankəndi şəhərinin, 39%-i qismən işğalda olmuş Ağdam, Füzuli və Tərtər rayonlarının, 60%-i işğala məruz qalmamış Ağcabədi və Bərdə rayonlarının inzibati ərazi vahidlərinin payına düşür. Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, Qarabağ iqtisadi rayonunda 2019-cu ildə fəaliyyət göstərən biznes subyektlərinin payı 3,8% olduğu halda bu göstərici 2020-ci ildə 4,06% olmuşdur. Qarabağ iqtisadi rayonundan fərqli olaraq, Şərqi Zəngəzur iqtisadi rayonunda KOB subyektlərinin daha az olması isə, Şərqi Zəngəzur iqtisadi rayonun tamamən işğal altında olması ilə əlaqədardır. Şərqi Zəngəzur iqtisadi rayonu üzrə 2019-cu ildə mövcud olan və fəaliyyət göstərən mikro, kiçik və eləcə də orta biznes müəssisələrinin ümumi sayı Respublika üzrə sahibkarlıq subyektlərinin 0.2%-ni təşkil etmişdir. Bu göstərici 2020-ci ildə 0,36%-dən ibarət olmuşdur. [2, s. 17]

**Nəticə**

Qeyd olunan məlumatlara əsaslanıb deyə bilərik ki, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında inkişafın təmin edilməsi, biznes mühitinin formalaşdırılması Azərbaycan iqtisadiyyatının daha da yüksək səviyyədə inkişafına təkan verəcəkdir. Bizə məlumdur ki, işğaldan azad edilən ərazilər çox yüksək kənd təsərrüfatı potensialına sahibdir, bu minvalla biznes mühitinin formalaşdırılması kənd təsərrüfatı sahələrində tətbiq olunduğu zaman, sahibkarlıq çox yüksək məhsuldarlıq əldə edəcəkdir. Araşdırma göstərir ki, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında kiçik və orta səviyyəli sahibkarlıq böyük paya sahib olmaqla kiçik və orta sahibkarlıq dövlətin iqtisadi siyasətinin tətbiqində əvəzsiz rola sahibdir. KOB-lar mövzusu haqqında araşdırma aparan müəlliflərin yanaşmasına əsasən, kiçik və orta səviyyəli sahibkarlıq, sosial xarakter daşımaqla məşğulluğun artırılmasına və yeni iş yerlərinin yaradılmasına şərait yaradır, əhalinin sosial rifahının inkişafına və xüsusilə də, orta təbəqənin inkişafına xidmət edir. Araşdırma zamanı o da məlum olur ki, KOB-ların daimi inkişafının təmin edilməsi üçün iqtisadi, hüquqi və sosial şərtlərin ödənilməsi olduqca önəmli faktorlardır.

## ƏDƏBİYYAT


1. Qarabağda Biznes Mühiti və Kiçik və Orta Biznesin İnkişafı Bakı, 2021, 388 s.
2. Qarabağ və Şərqi Zəngəzurun iqtisadi inkişafında investisiyaların rolu. Bakı, 2022, 222 s.
3. Dövlət Statistika Komitəsi (Azstat, 2022)
4. E-qanun, 2021. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
5. E-qanun, 2018 (http://www.e-qanun.az/framework/41048)

6. Qasımlı V. Qarabağın böyük iqtisadi potensialı var, 2020. (https://azertag.az/xeber/Vusal_Qasimli_Qarabagin_boyuk_iqtisadi_potensiali_var-1620053)
7. SMB. Ömürboyu öyrənmək, 2022. https://smb.gov.az/az/nav/omur-boyuoyrenmek
8. Qarabağ Universiteti güclü bir universitet brendi olacaq. 525-ci qəzet, 2021. (https://525.az/news/170045-qarabag-universiteti-guclu-bir-universitet-brendiolacaq-tehsil)

***Резюме***

***Аловсат Агаев***

***Формирование бизнес среды и поддержка малого и среднего бизнеса на освобожденных территориях***

В результате доблести, проявленной победоносной армией Азербайджана в 44-дневной национальной войне, были возвращены наши исторические земли, почти 30 лет разрушенные и разграбленные армянами. Решением Азербайджанской Республики были поддержаны экономические районы Карабах и Восточный Зангезур и обеспечено экономическое развитие в этих районах, что считалось главной целью. Со дня возвращения наших исторических земель на этих территориях начаты интенсивные работы по восстановлению и реконструкции. Начало работ по реконструкции осуществлялось разнонаправленно, а не однонаправленно, что в свою очередь дает импульс формированию и развитию каждого района, соответствующего рельефу, климату и другим показателям территорий, освобождаемых от занятие. Восстановительно-восстановительные работы, в свою очередь, не обошли стороной формирование деловой среды и развитие малого и среднего предпринимательства на освобожденных от оккупации территориях. Для привлечения предпринимателей в эти районы используются различные концессии. Буда, в свою очередь, поощряет предпринимателей создавать и развивать свой бизнес в этих областях. В целях обеспечения формирования и развития предпринимательской среды Указом Президента Азербайджанской Республики от 28 декабря 2017 года было создано Агентство по развитию малого и среднего бизнеса (АМБ). KOBIA предоставляет информацию, консультации, координацию и другие услуги предпринимателям, которые предоставляют информацию об экономическом инвестиционном потенциале территорий для ведения бизнеса. Одним из важнейших вопросов было создание бизнес-среды на освобожденных территориях и обеспечение инвестиций для развития широкого предпринимательства. Инвестиции могут осуществляться как за счет внутренних возможностей, так и за счет внешнего участия. Развитые страны во всем мире широко используют мелкое и среднее предпринимательство, основной причиной которого является очень высокий доход, который оно приносит. В нашей стране для обеспечения экономического развития широко используется малое и среднее предпринимательство. В этой статье мы узнали, что можно обеспечить развитие различных сфер, используя деятельность малого и среднего бизнеса. Как известно из статьи, с первых периодов начала восстановительных работ на свободных от оккупации территориях стали обращаться желающие заниматься предпринимательством на этих территориях. Большинство этих заявок были внутри страны, но было достаточно и заявок от иностранных предпринимателей. По информации, полученной Агентством по развитию малого и среднего бизнеса, до января 2022 года в KOBIA поступило 945 заявок. Из них 446 заявок относились к инвестиционным проектам и 499 к прочим работам и услугам. 27% заявок касались строительных работ, 27% – торговли и услуг, 21% – промышленности, 18% – сельского хозяйства, еще 7% – образования, туризма, культуры, здравоохранения и других сфер.

Основной целью данного исследования является изучение возможностей развития малого и среднего бизнеса в освобожденных от оккупации Азербайджана экономических районах и роли малого и среднего бизнеса в обеспечении общего социально-экономического развития страны. Для достижения поставленной цели необходимо решить следующие задачи.

• Определить государственную политику по развитию предпринимательства в Азербайджане и их классификацию;

• Исследовать возможности развития малого и среднего бизнеса на освобожденных территориях.

• Изучить значение МСП и их влияние на социально-экономическое развитие;

• Определить факторы, определяющие развитие малого и среднего бизнеса;

***Ключевые слова:*** *освобожденные территории, деловая среда, малое и среднее предпринимательство, инвестиции, развитие, МСП*

***Summary***

***Alovsat Agayev***

***Shaping the Business Environment and Supporting Small and Medium Business Entrepreneurship in Liberated Territories***

As a result of the valor shown by the victorious army of Azerbaijan in the 44-day national war, our historical lands, which were destroyed and looted under the Armenian occupation for nearly 30 years, were returned. In the territories freed from occupation, by the decision of the Republic of Azerbaijan, the economic regions of Karabakh and East Zangezur were supported and economic development in these areas was ensured. was considered the main goal. From the day our historic lands were returned, rapid restoration and reconstruction works have been started in those areas. The start of the reconstruction works was carried out in a multi-directional rather than a one-directional way, which in turn gives impetus to the formation and development of each area that corresponds to the relief, climate and other indicators of the territories freed from occupation. Reconstruction and restoration works, in turn, did not ignore the formation of a business environment and the development of small and medium enterprises in the territories freed from occupation. Various concessions are used to attract entrepreneurs to these areas. Buda, in turn, encourages entrepreneurs to establish and develop their businesses in these areas. In order to ensure the formation and development of the entrepreneurial environment, the Small and Medium Business Development Agency (SBA) was established by the decree of the President of the Republic of Azerbaijan dated December 28, 2017. KOBIA provides information, advice, coordination and other services to entrepreneurs who provide information on the economic investment potential of the areas in order to do business. One of the most important issues was the creation of a business environment in the liberated territories and provision of investment for the development of general entrepreneurship. Investment can be made both through domestic opportunities and through external involvement. Developed countries around the world widely use small and medium business entrepreneurship, the main reason for which is the very high income it brings. In our country, small and medium business entrepreneurship is widely used to ensure economic development. In this article, we learned that it is possible to ensure the development of various fields using small and medium business activities. As it is known from the article, from the first periods when the reconstruction works started in the territories free from occupation, those who want to engage in entrepreneurship in these territories started to apply. Most of these applications were from within the country, but there were enough applications from foreign entrepreneurs. According to the information received by the Small and Medium Business Development Agency, 945 applications were received by KOBIA until January 2022. Of these, 446 applications were related to investment projects and 499 were related to other works and services. 27% of the applications were for construction works, 27% for trade and service, 21% for industry, 18% for agriculture, and another 7% for education, tourism, culture, health and other fields.

The main purpose of this research is to investigate the development opportunities of SMEs in the economic regions liberated from occupation of Azerbaijan and the role of SMEs in ensuring the overall socio-economic development of the country. In order to achieve this goal, the following tasks should be carried out.

• To determine the state policy on the development of entrepreneurship in Azerbaijan and their classification;

• Investigate the development opportunities of SMEs in the liberated territories.

• Investigate the importance of SMEs and their impact on socio-economic development;

• To determine the factors determining the development of SMEs.

***Keywords:*** *Business environment in the liberated territories, Small and medium entrepreneurship, investment, development, SME*

Şöbə redaktoru i.ü.f.d., dos. Ələsgərova Flora Qəməndər qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.